Həmkarlar ittifaqı həyatı

# Ən kütləvi təşkilat

Ölkəmizdə həmkarlar İttifaqı cəmiyyətin ən kütləvi və qayğıkeş təşkilatlarından biri kimi sayılır. Bu təşkilat yarandığı gündən bəri insanların gündəlik qayğıları itlə məşğul olub, onların əmək fəallığını yüksəldib, hüquqlarını qoruyub, kollektivlərdə əmək intizamını möhkəmləndirib. Eyni zamanda bu qurum insanların texniki təhlükəsizliyinin təmin edilməsinə, məişət və istirahətinin səmərəli təşkilinə biganə qalmayıb. Sevindirici haldır ki, son vaxtlar müstəqil ölkəmizdə yaradılan sağlam mühit cəmiyyətdə həmkarlar ittifaqının rolunu və nüfüzünü daha da artırmışdır.

Bu baxımdan Mədəniyyət İşçiləri Müstəqil Həmkarlar İttifaqı Qəbələ Rayon Komitəsinin fəaliyyəti müasir tələblər səviyyəsində qurulmuş və öz nüfuz dairəsini xeyli genişləndirmişdir.

Qəbələ Rayon Komitəsi 413 nəfər həmkarlar ittifaqı üzvünü təmsil edir, 10 ilk təşkilatı özündə birləşdirir. Bu təşkilatlar rayon mədəniyyət evlərini, klubları, incəsənət məktəbini, tarix-idiyarşünaslıq muzeyini, Heydər Əliyev Mərkəzini, Qəbələ Dövlət Bədii Qoruğunu, Dövlət rəsm qalereyasını, mərkəzləşmiş kitabxana sistemini təmsil edir. Bundan başqa «Qəbələ» qəzeti redaksiyası, gənclər və idman idarəsi də komitənin əhatə dairəsinə daxildir.

Rayon komitəsinin diqqət mərkəzində duran mühüm məsələlərdən biri insan amilinə yüksək qiymət verməkdən ibarətdir. Bu məqsədlə ittifaq üzvlərinin istrahət və müalicəsi üçün çox mühüm tədbirlər həyata keçiririk. Təkcə 2015-ci ildə 3 nəfər komitə tərəfindən sanatoriyaya göndərilmişdir. Çalışmışıq ki, verilən göndərişlər sanatoriya müalicəsinə ehtiyacı olan mədəniyyət işçiləri arasında ədalətlə bölüşdürülsün, bu sahədə qanun pozuntusuna yol verilməsin. Biz bu göndərişlərin ittifaq üzvlərinə əsasən yay aylarında verilməsini təmin edirik.

Tarixi günlərdə və dini bayramlarda işə daha məsuliyyətlə yanaşan, eyni zamanda ehtiyacı olan ittifaq üzvləri imkan daxilində bayram sovqatları və yardımlarla təmin edilir. Tərəfimizdən bütün iş yerlərində təhlükəsizlik texnikası üzrə komissiya yaradılmışdır. Təhlükəsizliyi təmin etmək məqsədi aparılan maarifləndirmə tədbirləri öz müsbət nəticəsini verməkdədir. Bu günədək heç bir bədbəxt hadisə qeydə alınmamışdır. Hər il ətraf rayonlarında keçirilmiş reyd zamanı Qəbələ Rayon Komitəsinin iş təcrübəsi müsbət qiymətləndirilmişdir.

Üzvülük haqlarının yığılmasında da problemimiz yoxdur. Hər ay vaxtlı-vaxtında üzvülük haqları yığılır, mədəni kütləvi tədbirlərə sərf olunur. Bu sahədə tarixdiyarşünaslıq muzeyinin, «Qəbələ» qəzeti redaksiyasının, mərkəzi kitabxana sisteminin və digər ilk həmkarlar ittifaqı təşkilatlarının fəaliyyəti xüsusilə qənaətbəxşdir. Rayon komitəsi tərəfindən üzvlərin səbəbsiz işdən çıxarılması hallarına da yol verilmir.

Əlbəttə, gördüyümüz işlər komitənin fəaliyyətinin az bir hissəsidir. Çalışagağıq ki, gələcəkdə təşkilatın fəaliyyətini daha da canlandıraq.

**Malik AĞAYEV,**
**MİMHİ Qəbələ Rayon Komitəsinin sədri.**

# Heydər Əliyev fondunun dəstəyi ilə «Əbədi ezamiyyət» sənədli filmi çəkilib

Nizami Kino Mərkəzində Heydər Əliyev Fondunun dəstəyi ilə Bakı Media Mərkəzi tərəfindən hazırlanan «Əbədi ezamiyyət» sənədli filminin və «Qərib məzarlar» kitab-albomunun təqdimat mərasimi keçirilib. Layihənin rəhbəri və filmin prodüseri Arzu Əliyeva mərasimdə iştirak edib.

«Əbədi ezamiyyət» filmi Azərbaycan Xalq Cümhuriyyətinin 1919-cu ilin yanvarında parlament sədri Əlimərdan bəy Topçubaşovun rəhbərliyi ilə Paris Sülh Konfransına ezam etdiyi nümayəndə heyətinin keşməkeşli taleyindən bəhs edir.

«Qərib məzarlar» kitab albomu isə 1919-cu ildə Parisə ezam olunmuş Azərbaycan nümayəndə heyətinin və ötən əsrin 20-ci illərində bolşevik təqibindən yaxa qurtarmaq üçün Fransaya üz tutan soydaşlarımızın və ölkədəki taleyi və məzarları barədə məlumat toplusudur.

# «İlin məktəbi» müsabiqəsinin qalibi

Əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş təhsil strategiyasının davamlı inkişafı Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, təhsil sahəsində islahatlar, dövlət proqramları həyata keçirilir. Millətin gələcəyi naminə çalışan təhsil işçiləri dövlət qayğısını daim öz üzərində hiss edir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 21 dekabr 2015-ci il tarixli fərmanı onlarla müəllimin sevincinə səbəb oldu. «İlin ən yaxşı məktəbi» müsabiqəsinin qalibi olmaq respublikamızın 100 ən yaxşı təhsil müəssisəsindən biri olmaq şərəfi bizə—Qəbələ şəhər P. Osmanov adına 2 nömrəli tam orta məktəbin kollektivinə də nəsib oldu. Buna görə Qəbələ şəhər 2 nömrəli tam orta məktəbin kollektivi cənab Prezidentimiz İlham Əliyevə minnətdarlığını bildirir. Ömrünü gələcəyimiz olan şagirdləri yolunda şam kimi əridən müəllimlərimizin fədəkar əməyinə bundan böyük qiymət ola bilməz.

2013—2014-cü tədris ilindən rəhbərlik etdiyim Qəbələ şəhər 2 nömrəli tam orta məktəb 1937-ci ildən ümumi orta məktəb kimi fəaliyyətə başlamış, 1968-ci ildə tam orta məktəbə çevrilmişdir. 2015—2016-cı tədris ilində məktəbimizdə 27 sinif komplektində 573 şagird təhsil alır. Şagirdlərin təlim-tərbiyəsi ilə 102 nəfər müəllim məşğul olur ki, bunlardan 94 nəfəri ali təhsillidir. Məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Kərimova Rəna Emin qızı "Tərəqqi" medalına, Cəfərova Yeganə Səhrab qızı Azərbaycan Respublikasının Əməkdar müəllimi adına layiq görülmüşdür. Məktəbimiz Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən yeni kompyuter, noutbook, proyektor və elektron lövhə ilə təchiz olunmuşdur. Gənc nəslin təlim-tərbiyəsində və onların elmi biliklərə yiyələnməsində İKT-nin rolu danılmazdır. Məktəbimizdə müasir təlim texnologiyalarının tətbiqi və ondan səmərəli istifadə bir daha təhsil göstəricilərinin yüksəlməsinə gətirib çıxarmışdır. Məktəbin riyaziyyat müəllimi Kərimova Natella İsmayıl qızı Qəbələ təhsilində ilk dəfə olaraq elektron lövhə vasitəsilə dərs keçirmişdir. Həmin müəllim "elektron lövhə" ilə tərtib olunan ən yaxşı dərs nominasiyası üzrə müsabiqədə də iştirak etmişdir. Bu müəllimlərin qabaqcıl iş təcrübəsi rayonun digər müəllimləri tərəfindən də öyrənilir.

Respublikamızda həyata keçirilən təhsil islahatına fəal surətdə qoşulan Qəbələ şəhər 2 nömrəli tam orta məktəb üçün ötən tədris ili uğurlu olmuşdur. Belə ki, məktəbi bitirən 57 məzunumuzdan 19 nəfəri respublikamızın nüfuzlu ali təhsil müəssisələrinə, 3 nəfəri isə orta ixtisas məktəblərinə qəbul olunmuşdur. Sevindirici haldır ki, məzunlarımızdan 2 nəfəri 600-dən, 3 nəfəri isə 500-dən yuxarı bal toplamışdır. Ali məktəblərə qəbul olunan məzunlarımızın sayı ilbəil artır.

Onu da qeyd edim ki, Mustafayeva Lalə Azər qızı məktəbi qızıl medalla bitirmişdir. Qürurla deyə bilərəm ki, Lalə Mustafayeva həm də fənn olimpiadalarının respublika turunda biologiya fənni üzrə Respublika birincisi olmuş və qızıl medala layiq görülmüşdür. Məzunumuzun 2 qızıl medala layiq görülməsi məktəbimizin pedaqoji kollektivini sevindirir, məsuliyyətimizi artırır, daha yaxşı işləməyə sövq edir. Məktəbimizin daha bir məzunu Aslanova Fidan Natiq qızı 47-ci Beynəlxalq Kimya Olimpiadasının zona turunun iştirakçısı olmuşdur. Yeri gəlmişkən, Fidan Aslanova 680 bal toplayaraq Ali Neft Məktəbinin tələbəsi adına layiq görülmüşdür.

Məktəbimizin daha bir şagirdi Səfərəliyeva Gültəkin Sadiq qızı 20 dekabr 2015-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyinin keçirdiyi "Milli-mənəvi dəyərlərimiz haqqında düşüncələrim" mövzusunda inşa yazı müsabiqəsində Qəbələ rayonunu təmsil etmişdir.

Məktəbimiz pilot layihələrdə də iştirak edir. «Zərdabi-ibtidai sinif şagirdlərinin oxu bacarığının inkişafı» layihəsində məktəbimizin IV sinif şagirdləri fəal iştirak edirlər. Məktəbimiz Bilik Fondunun xətti ilə keçirilən respublika səviyyəli tədbirlərdə nəinki fəal iştirak edir, eyni zamanda bu tədbirlərə ev sahibliyi edir.

Məktəbimizdə şagirdlərin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunması istiqamətində mühüm işlər görülür. Belə ki, 2012—2013-cü ildə Respublika üzrə keçirilən "I Gənc xilasedici və yanğınsöndürən" yarışlarında ("Axtarış xilasetmə") məktəbimizin komandası I yeri tutmuşdur. 2014-2015-ci tədris ilində məktəbin komandası "Şahin-hərbi" idman oyununda rayon üzrə I yerə çıxmış, Zaqatala da keçirilən zona yarışında III yeri qazanmışdır.

Məktəbimizdə fiziki tərbiyə fənninin inkişafına xüsusi diqqət yetirilir. Şagirdlərimiz şahmat, güləş, futbol, yüngül atletika və digər növləri üzrə keçirilən respublika səviyyəli yarışlarda yüksək nəticələr əldə etmişlər. Məktəbin şagirdi Hüseynzadə Aydan Sahib qızı 2012—2013-cü ildə "Təhsil" İdman Mərkəzinin respublika birinciliyində şahmat məsələlərinin həlli üzrə yarışda I yerə sahib olmuşdur. Aydan Hüseynzadə 2013—2014-cü ildə şahmat məsələlərinin həlli üzrə gənclər arasında keçirilən 38-ci Beynəlxalq turnirdə II yerə sahib olmuşdur. Aydan idmanın bu növü üzrə Beynəlxalq turnirdə qələbə qazanan ilk azərbaycanlı şahmatçı qadındır. Məktəbimizin IX sinif şagirdi Əzimov Elçin Valeh oğlu 2013-2014-cü ildə Qafqaz Peşəkar İdman Klubunun cüdo üzrə açıq birinciliyində II yerə sahib olmuşdur. Məktəbimizdə tez-tez bilik yarışları, şeir, inşa, rəsm müsabiqələri keçirilir, qaliblər mükafatlandırılır və fəxri fərmanlarla təltif edilir. Məktəbimizdə tez-tez görkəmli ədiblərin yubileyləri qeyd olunur (M. Lermontov—200, O. Sarvəlli—110, B. Vahabzadə—90, Z. Yaqub—65). Şagirdlər rayon və respublika səviyyəli müsabiqələrdə iştirak edir və qələbələr qazanırlar.-Məktəbimizin XI sinif şagirdi Mustafazadə Xəzanə Gündüz qızı Bilik Fondunun respublika məktəbləri arasında keçirdiyi "Vətənin pərvəri ol" inşa müsabiqəsində xüsusi diploma layiq görülmüşdür.

Məktəbimizdə I—VIII siniflərdə bütün dərslər milli kurrikulumun tələblərinə uyğun aparılır. Məktəbdə tez-tez açıq dərslər təşkil olunur, təhsillə bağlı olan bütün yeniliklər izlənilir və uğurla dərslərdə tətbiq olunur.

Artıq 2 ildir ki, respublikanın ümumtəhsil məktəblərinin XI sinif şagirdlərinə müstəqil Azərbaycanın qurucusu və memarı Heydər Əliyevin irsinin öyrədilməsinə həsr olunmuş xüsusi dərslər keçirilir. Şəhər 2 saylı tam orta məktəbin rəhbərliyinin təşəbbüsü ilə bu məktəbdə ilk dəfə I—X siniflərə ulu öndərə həsr olunmuş Heydər Əliyev dərsləri tədris olunur.

Məktəbin pedaqoji kollektivi qarşıya qoyulmuş vəzifələrin uğurla yerinə yetirilməsinə əzimlə çalışır. Burda bütün fənlər ixtisaslı müəllimlər tərəfindən tədris olunur, kadr çatışmamazlığı yoxdur. Məktəbdə 8 fənn komissiyası fəaliyyət göstərir. Müəllimlərimizin gərgin əməyi nəticəsidir ki, 2014—2015-ci ildə məktəbin komandası rayon məktəbləri arasında keçirilən bilik yarışında rayon birincisi olmuşdur. Ümumiyyətlə 2014—2015-ci tədris ilində həm bilik yarışında həm hərbi idman oyunlarında rayon birincisi olmaq bizi qürurlandırır. Biz əsası ulu öndər H. Əliyev tərəfindən qoyulan və hörmətli Prezidentimiz cənab İlham Əliyev tərəfindən davam etdirilən təhsil siyasətini dəstəkləyirik. 2 saylı tam orta məteb ölkə Prezidentinin, Azərbaycan Respublikası Təhsil Nazirliyinin və Qəbələ Rayon İcra Hakimiyyətinin təhsilə olan diqqət və qayğısını daim öz üzərində hiss edir. Əminliklə deyə bilərik ki, bu qayğıdan ruhlanan və yeni təhsil strategiyasının əsas prinsiplərini əldə rəhbər tutan kollektivimiz daha böyük uğurlara imza atmaq, məktəbmizin respublika səviyyəli nümunəvi təhsil ocağına çevrilməsi üçün əlindən gələni əsirgəməyəcək.

**Təranə Səlimova,**
**Pərviz Osmanov adına şəhər 2 saylı tam orta məktəbin direktoru.**